İnqilabın Rəhbəri Əfqanıstanda məsciddə baş vermiş partlayışla bağlı müraciət ünvanladı - 9 /Oct/ 2021

Əfqanıstanın Qunduz əyalətində məsciddə baş vermiş dəhşətli partlayış hadisəsi və nəticədə çoxlu sayda namaz qılanın həlak olması münasibətilə müraciət ünvanlayan Həzrət Ayətullah Xamenei bu böyük cinayəti törədənlərin cəzalandırılması və belə bir faciənin təkrarlanmasının qarşısının alınmasının zəruri olduğunu dedi.

İslam İnqilabının Rəhbərinin müraciətinin tam mətni:

Mərhəmətli və Bağışlayan Allahın adı ilə

Qunduz əyalətinin Xanabad bölgə məscidində çoxlu sayda namaz qılan möminin ölümü ilə nəticələnən acı və dəhşətli partlayış bizi kədərləndirdi.

Qonşu və qardaş olan Əfqanıstan dövlətinin rəhbərliyindən bu böyük cinayətin qana susamış səbəbkarlarını cəzalandıracaqlarına və bu cür faciələrin təkrarlanmaması üçün lazımi tədbirlər görəcəklərinə ümid edirik. Allah-taaladan bu hadisədə şəhid olmuş insanlara rəhmət və ali dərəcələr, xəsarət almış insanlara şəfa və onların yaxınlarına səbr və təmkin diləyirəm.

Seyid Əli Xamenei
17 mehr 1400

Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir